# NAXÇIVAN MR TƏSƏRRÜFATININ ƏRAZİ STRUKTURUNUN FORMALAŞMA XÜSUSİYYƏTLƏRİ

*E.E.ГАСЫМОВ*

*Məqalədə Naxçıvan Muxtar Respublikasının təsərrüfat strukturunun inkişafında və formalaşmasında əsas təbii-iqtisadi şərtlərin rolundan bəhs edilir. Əsas iqtisadi inkişaf zolağı və mərkəzləri müəyyənləşdirilir, onların iqtisadi rayonların yaranmasında oynadığı roldan bəhs edilir.*

Muxtar Respublikanın coğrafi əmək bölgüsü, anklav mövqeyi, ərazisinin konfiqurasiyası, təbii-iqtisadi potensialı və s. amillərin təsiri altında, onun daxili rayonlarında yerləşən müxtəlif formalı ərazi-təsərrüfat strukturları: sənaye mərkəzləri, kənd təsərrüfatı zonaları, nəqliyyat qovşaqları və s. əmələ gəlmişdir.

Muxtar Respublikada coğrafi əmək bölgüsünün iki mühüm forması fəaliyyət göstərir: daxili və xarici əmək bölgüləri. Daxili əmək bölgüsü əsasən son illər daha aydın nəzərə çarpmağa başlamış və əhalinin yerli tələbatını ödəyən müxtəlif istehsal və xidmət sahələrinin inkişafını əhatə edir.

Xarici əmək bölgüsü hələ keçmiş SSRİ dövründən yaradılmışdır və əsasən respublikadan kənara göndərilən müxtəlif sənaye və aqrar-sənaye məhsulları üzrə ixtisaslaşmanı əhatə edirdi. Hazırda onun mahiyyəti və strukturu xeyli dərəcədə dəyişilmişdir.

Xarici əmək bölgüsü keçmişdə əsasən xammal yönümlü təsərrüfat sahələrinin ixtisaslaşmasına üstünlük verirdi. Hazırki bazar iqtisadiyyatı şəraitində xarici əmək bölgüsünün inkişafı üçün Muxtar Respublikanın unikal təbii ehtiyatları, yüksək peşə və təhsil hazırlığı olan sərbəst işçi qüvvəsi və yeni açılan əhəmiyyətli perspektivləri vardır. Bu perspektivlər bir tərəfdən yaxın gələcəkdə Türkiyənin Avropa İqtisadi Birliyinə daxil olması ilə Naxçıvan Muxtar Respublikasının Ümumi bazarın yaxın qonşularından birinə çevrilməsi və digər tərəfdən Azərbaycanın əmək bölgüsündə onun iştirakının artması ilə bağlıdır.

Göstərilən əlverişli imkanlardan istifadə edərək Naxçıvan Muxtar Respublikası xarici əmək bölgüsündə mineral sudoldurma, daş duz-kimya məhsulları, əlvan metal filizləri və qızıl, tikinti materialları yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları – ərik, şaftalı, qoz, kişmiş, üzüm sortları və onların emalı məhsulları, nəqliyyat-ötürücü funksiyası və s. üzrə geniş ixtisaslaşmasını və ixracat əməliyyatlarını həyata keçirə bilər.

Yuxarıda göstərilən coğrafi əmək bölgüsünün Muxtar Respublikada inkişafına yalnız bir-birilə bağlı olan tamamlanmış ərazi-təsərrüfat kompleksinin yaradılması yolu ilə nail olmaq mümkündür. Bu yolda müxtəlif faydalı qazıntılarla zəngin olan Naxçıvan Muxtar Respublikasında xammalın çıxarılmasından başlayaraq bütün növ hazır məhsulların alınmasınadək olan tam istehsal texnoloci silsilələrin yaradılması olduqca əlverişli variantlardan biri hesab oluna bilərdi. Burada olan daş duz yataqları əsasında iri dağ mədən-kimya kombinatı, mineral tikinti materialları kombinatı, əlvan metal filizləri və qızıl hasilatı, mineral sudoldurma və s. əsasında iri enerci istehsal silsilələri yaradılması haqqında bir sıra layihələr hazırlanmışdır. Nehrəm və Duzdağ yataqlarının istifadəsi əsasında Babək rayonunda xörək duzu və bir sıra kimyəvi məhsullar-soda, xlor və s. istehsal edən dağ-mədən kimya enerci istehsal silsiləsinin yaradılması layihəsi hələ 60-70-ci illərdə akademik Y.Məmmədəliyevin rəhbərliyi və o zaman Akademiyanın İqtisadiyyat İnstitutunun şöbə müdiri A.A.Nadirovun tədqiqatları ilə ətraflı əsaslandırılmalar aparılmışdır.

Muxtar Respublikada «idxalı əvəz etmək» siyasətinin yürüdülməsi onun yeni təsərrüfat strukturunun yaradılmasına müsbət təsir göstərirdi. İdxal olunan bir çox sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı onun daxili rayonlarında və həm də yerli ehtiyatlar hesabına inkişaf edilə bilər. Bu yolla daxili bazar qismən blokada təhlükəsindən qurtarmış olardı. Göstərilən siyasətin həyata keçirilməsi respublikanın daxili rayonlarının inkişafına da müsbət təsir göstərər. Bu barədə işin sənaye coğrafiyası bölməsində daha ətraflı məlumat verilmişdir.

Bir daha qeyd edilməlidir ki, hazırki inkişaf mərhələsində Naxçıvan Muxtar Respubilkasının ərazi–təsərrüfat strukturunun təkmilləşdirilməsində, müxtəlif mülkiyyət və ərazi idarəetmə orqanları arasında işlək mexanizmin qurulmasında, təbii, əmək və s. ehtiyatların istifadəsi üzrə iri miqyaslı layihələrin hazırlanmasında, xarici sərmayənin geniş axınının təşkilində və s. kimi çox vacib problemlərin həllində Azərbaycan və Naxçıvan Muxtar Respublikası dövlət orqanlarının təsir və tənzimləmə mexanizmlərinin əhəmiyyəti xeyli artmışdır. Göstərilən vacib təsərrüfat proqramlarının hazırlanmasında kompleks elm olan iqtisadi və sosial coğrafiyada yaxından iştirak edə bilər.

Bütün bu deyilənlərdən Naxçıvan Muxtar Respublikasının təsərrüfatının müasir ərazi strukturunun formalaşmasında aşağıdakı meyllər müşahidə olunur:

- geniş səpələnmiş özəl təsərrüfatların yaratmağa başladığı yeni ərazi strukturunun formalaşdırılmasında dövlətin tənzimləmə rolunun artması;
- müasir blokada şəraiti nəzərə alınaraq təsərrüfatın daha geniş istehsal və xidmət tərkibində təmsil olunması;
- «idxalı əvəzetmə siyasətinin» dərinləşdirilməsi məqsədilə daxili istehsalın və əlaqələrin genişləndirilməsi;

- ilk növbədə nəqliyyat yollarına yaxın olan, az xərclər tələb edən və tez mənimsənilən təbii ehtiyatların istifadəyə cəlb edilməsi;
- əlverişli təbii şəraiti olan, inkişaf etdirilmiş təsərrüfat sahələri və şəhər məntəqələri cəmləşən dağətəyi zolaq boyu Muxtar Respublikanın baş iqtisadi inkişaf oxunun formalaşdırılması;
- qonşu Türkiyənin maliyyə imkanlarından və yeni texnologiyasından istifadə etmək məqsədilə müxtəlif inteqrasiya əlaqələrinin genişləndirilməsi və s.

Əhali bölgəsində qeyd olunduğu kimi iqtisadi və sosial coğrafiya elmində geniş yer almış «məskunlaşmanın dayaq karkasları», iqtisadi inkişaf zolaqları və b. elmi ideyalardan istifadə edərək Naxçıvan Muxtar Respublikası təsərrüfatının ərazi təşkilinin xüsusiyyətlərinin daha ətraflı öyrənmək olar.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən anlayışlar iqtisadi və sosial coğrafiya elmində ətraflı öyrənilmiş və müxtəlif sahələrdə geniş tətbiq olunur (2, 3). Ərazinin inkişaf zolaqları və mərkəzləri ideyasını ilk dəfə irəli sürən N.N.Baranski onun barəsində yazmışdır: «Ölkə və ya rayonun dayaq oxlarının ilkin cizgilərini şəhərlər və yollar əmələ gətirirlər» (2: səh.204). Özü də, iqtisadi inkişaf zolaqları ideyası hazırda dünyada gedən qloballaşma prosesinin tələblərinə daha çox cavab verir.

Göstərilən elmi ideyaların mahiyyəti ondan ibarətdir ki, hazırki şəraitdə bazarın tələbatının ödənilməsi ön plana çəkildiyinə görə ölkə daxilində məskunlaşma (satış bazarı), istehsal və infrastruktur sahələri arasındakı qarşılıqlı əlaqə və asılılıq daha da güclənir və onların vahid sistemləri – ***<u>məskunlaşmanın dayaq karkasları və iqtisadi inkişaf zolaqları</u>*** əmələ gəlir.

Bu prinsipin tələbatına görə ərazidə üst-üstə düşən məskunlaşma karkasları və iqtisadi inkişaf zolaqları təbii şərait və ehtiyatlardan istifadəni, şəhər və kənd yaşayış məntəqələrini, təsərrüfat və nəqliyyat sahələrini qarşılıqlı surətdə əlaqələndirən baş ilgək (zveno) rolunu oynamalıdır.

Naxçıvanın arid iqlim şəraitində zonasında əhalinin və təsərrüfatın yerləşməsi bir çox hallarda çaylar, kəhrizlər, yeraltı su mənbələri ilə sıx bağlı olurlar. Bu bir də onunla bağlıdır ki, digər xammallardan fərqli olaraq su ehtiyatlarını bir yerdən digər yerə daşımaq və ya əvəz etmək qeyri-mümkündür. Xeyli münbit allüvinal torpaqlarla örtülən, su ilə yaxşı təmin olunan və nəqliyyat yollarının çəkilməsi (keçmişdə köç yolları adlandırılırdı) üçün əlverişli olan çay dərələri və onların düzənliyə çıxarkən genişlənən çayağzı hissələri hələ lap qədimlərdən əhalinin məskunlaşmasına, şəhər və kəndlərin salınmasına və təsərrüfat həyatının formalaşmasına güclü təsir göstərmişdir.

Naxçıvanın böyük təsərrüfat əhəmiyyəti olan belə çaylarından Araz, Gilançay, Arpaçay, Naxçıvançay, Əlincəçay, Ordubadçay və b. göstərmək olar. Bu çayların böyük su təchizatı, suvarma, hidroenerci alınması, balıqçılıq və b. təsərrüfat əhəmiyyəti vardır.

Muxtar Respublikanın çay dərələri, dağ və düzənliyin təmas xətti boyunca baş iqtisadi inkişaf zolağı uzanır. Onun ərazisini şərqdən qərbə 158 km məsafədə kəsib keçən ***iqtisadi inkişaf zolağı*** – Ordubad – Culfa – Babək – Naxçıvan – Şərur – Sədərək (Heydərabad) istiqamətində uzanan dəmir və avtomobil magistral yolları, qaz və elektrik xətləri ilə ust-ustə düşür.

Bir-birinə paralel uzanan və müxtəlif növ yüklərin daşınmasında qarşılıqlı iştirak edən nəqliyyat-kommunikasiya sistemi ilə üst-üstə düşən iqtisadi inkişaf zolağı Naxçıvanın geniş ərazilərini, iri iqtisadi mərkəzlərini bir – birilə birləşdirir, xarici və daxili əlaqələrini yerinə yetirir və bununla da sözün əsl mənasında onun ərazi təsərrüfat kompleksinin və ümumi inkişafının təməlinə çevrilir.

Düzən və dağlıq ərazilərin təmas xətti boyunca keçən bu zolaq həmin ərazilərin müxtəlif növ təbii şəraiti və ehtiyatlarından əlaqəli şəkildə istifadəni təmin edir. Bu da möhkəm dağ-aran təsərrüfat kompleksinin təkcə Naxçıvan Muxtar Respublikasına xas olan formasını yaradır.

Çay dərələri boyunca çəkilən və dağ rayonlarını baş inkişaf oxu ilə birləşdirən yollar bir növ əsas zolağın yan, köməkçi qollarını əmələ gətirlər. Bununla da iqtisadi inkişaf zolağının əlaqələndirici təsiri respublikanın daha geniş ərazilərinə və təsərrüfatlarına yayılaraq onların da dirçəlməsinə təkan verir.

Məsələn, Batabatdan başlayaraq Naxçıvan şəhərinə qədər uzanan avtomobil yolu həm dağlıq əraziləri düzənliklə birləşdirir və həm də onun üzərində yerləşən Badamlı və Sirab kimi Azərbaycanın ən iri mineral sudoldurma kompleksinin inkişafına şərait yaradır.

Naxçıvanın müasir sənaye sahələrinin hamısı – yüngül və yeyinti sənayesi, daş düz, tikinti materialları, mineral sudoldurma və s. əsas və yan iqtisadi inkişaf zolağı üzərində yerləşirlər. Az-çox inkişaf etmiş iri sənaye və mədəniyyət mərkəzlərinin demək olar ki, hamısı əsas və yan qovşaqlarında yerləşirlər. İqtisadi inkişaf zolağı Azərbaycanın qədim və tarixi abidələrlə zəngin olan əhəmiyyətli sənaye mərkəzi Ordubaddan başlayır. Bu şəhərdə və rayonda olan köhnə sənaye müəssisələrinin bərpası bazarda böyük tələbat olan xam ipək, qoz mürəbbəsi, əlvan metal filizləri istehsalının təşkili çox da böyük vəsait tələb etməzdi. Onun yaxınlığında İran dövləti ilə qonşuluqda əlverişli sərhədyanı nəqliyyat-coğrafi mövqe tutan «Şərqin qapısı» əhəmiyyətini indi də itirməyən Culfa şəhər nəqliyyat–qovşağı yerləşir. Naxçıvanı Təbriz və Azərbaycanla birləşdirən bu qovşağın nəqliyyat funkisyası beynəlxalq əhəmiyyət kəsb edir və iqtisadi inkişaf zolağının əlaqələrini xarici ərazilərə daha geniş yaya bilir.

İqtisadi inkişaf zolağının əsas ilgəyini Naxçıvan-Babək sənaye qovşağı təşkil edir. İqtisadi zolağın əlaqələrinə geniş imkan yaradan, onun inkişafını idarə edən paytaxt şəhər Naxçıvandır. Təkcə bu şəhər Muxtar Respublikanın ümumi sənaye məhsulunun 68,9 %-i verir.

Qərbdən iqtisadi inkişaf zolağını Şərur və Sədərək (Heydərabad) şəhər və qəsəbəsi əhatə edir. Şərur tədricən iri ixracat əhəmiyyətli şəkər çuğunduru və tikinti materialları mərkəzinə çevrilməkdədir.

İqtisadi inkişaf zolağının beynəlxalq əhəmiyyətli nəqliyyat çıxışları aşağıdakılardır:

1. Bakı – Culfa və Naxçıvan – Yerevan – Kars (Türkiyə) dəmir və avtomobil yolları hazırda bu istiqamətdə Ermənistan tərəfindən blokadaya alınması bütün növ əlaqələrin kəsilməsinə səbəb olmuşdur;
2. Son illər yaranan inkişaf zolağının yeni əhəmiyyətli beynəlxalq çıxış istiqamətləri Culfa və Şaxtaxtı məntəqələrindən İrana gedir;
3. Sədərək körpüsündən Türkiyəyə çıxan və hazırda böyük beynəlxalq əhəmiyyət kəsb edən istiqamətdir. Güclü nəqliyyat vasitələri ilə təmin olunan son iki istiqamət Naxçıvanın baş iqtisadi inkişaf zolağının geniş və perspektivli regionlarla (İran körfəzi, Ərəb ölkələri, Aralıq dənizi hövzəsi və Avropa ölkələri və s. ) əlaqələrini təmin edirlər.

Hazırda göstərilən istiqamətlərdə həyata keçirilən xarici iqtisadi əlaqələri Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Culfa, Sədərək və Şaxtaxtı gömrükxanaları icra edirlər.

2000-ci ilin məlumatına görə Muxtar Respublikada istehsal olunan ümumi sənaye məhsulunun 96,7 %-i iqtisadi inkişaf zolağında yerləşən şəhərlərin payına düşür (cədvəl 1).

**Cədvəl 1**

Naxçıvan Muxtar Respublikasının ümumi sənaye məhsulunda inkişaf zolağının xüsusi çəkisi (%-lə)

| **Sənaye mərkəzləri** | **1995-ci il** | **2000-ci il** |
|---|---|---|
| İnkişaf zolağının üzərində yerləşən şəhərlərin xüs. çək.<br>**O cümlədən:** | 99,2 | 96,7 |
| *Naxçıvan şəhəri* | 63,8 | 68,9 |
| Babək ………… | 27,1 | 14,0 |
| Şərur ………….. | 4,3 | 6,8 |
| Sədərək ……….. | 2,4 | 0,6 |
| Ordubad……… | 1,0 | 4,8 |
| Culfa ………… | 0,6 | 3,3 |
| İnkişaf zolağından kənarda yerləşən şəhərlərin xüs.çək.<br>**O cümlədən:** | 0,8 | 3,3 |
| Şahbuz şəhəri | 0,8 | 3.3 |
| **Naxçıvan MR üzrə** | 100,0 | 100,0 |

***1) Mənbə: 1: səh. 12-21; 4:səh.44-48.***

Gördüyünüz kimi, 1995-2000-ci illərdə baş verən kiçik fərqlərə baxmayaraq Muxtar Respublikanın əsas sənaye potensialı iqtisadi inkişaf zolağı üzərində təmərküzləşmişdir. Onun iri daş duz, tikinti materialları, yataqları, mineral bulaqları, suvarılan torpaq sahələri, intensiv kənd təsərrüfatı, əhalisi və əmək ehtiyatlarının böyük əksəriyyəti də inkişaf oxu boyunca yerləşir. Yüksək inkişaf etmiş nəqliyyat vasitələri bu oxun üzərində yerləşən yaşayış məntəqələri arasında sıx əlaqələri, mal və materialların axınını asanlaşdırır, satış bazarlarının optimal yerləşməsini

təmin edir, yeni müəssisələrin tikilməsinə müsbət təsir göstərir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının ərazisinin konfiqurasiyası, təbii şəraiti və ehtiyatları, anklav geosiyasi vəziyyəti, coğrafi əmək bölgüsü və s. amillərin təsiri altında daha az əmək və maliyyə tələb edən yığcam, iqtisadi cəhətdən işlək hesab olunan əhali və təsərrüfat sahələrini qarşılıqlı surətdə əlaqələndirən vahid baş iqtisadi inkişaf oxu və mərkəzləri şəklində ərazi təşkili forması yaranmışdır. Belə forma daxilində əhali və təsərrüfatın təmərküzləşməsi və yaxınlaşması güclənir, müxtəlif növ kooperasiya, texnoloci, əmək və s. əlaqələrin qurulması asanlaşır və Muxtar Respublikanın perspektiv inkişafına köklü zəmin yaranır.

Gələcəkdə yeni sənaye müəssisələrinin əlverişli infrastruktura malik olan iqtisadi zonaların üzərində yerləşdirilməsi hərtərəfli faydalı olardı.

**ƏDƏBİYYAT**


1. Azərbaycanın regionları. Bakı, «Səda», 2002.
2. Барански Н.Н. Становление советской географии. М., «Мысл», 1980. стр. 204.209.
3. Заппо Г.М. География городов. М.1997, стр.114.
4. Nadirov A.A, Nuriyev Ə.X, Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı. Elm – 2000.
5. Naxçıvan ensiklopediyası. Bakı, «Elm», 2002. Naxçıvan statistika güzgüsündə. 75. Bakı. «Səda» - 1999.


ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ТЕРРИТОРИАЛЬНОЙ СТРУКТУРЫ ХОЗЯЙСТВА НАХЧЫВАНСКОЙ АР


**Э.Э.ГАСЫМОВ**


**АННОТАЦИЯ**


В статье рассматриваются основные природно-экономические условия и предпосылки формирования хозяйственной структуры Нахчыванской АР и тенденции ее изменений. Выделяются прогрессивные формы территориальной организации хозяйства экономические полосы (ОСИ) и центры, показывается их районноорганизующаю роль.


**PECULIARITIES OF TERRITORIAL STRUCTURE FORMATION OF NAKHICHEVAN AUTONOMOUS REPUBLIC**


**E.E.GASIMOV**

## ABSTRACT

The article considers main natural and economic conditions and prerequisites for formation of economic structure of Nakhichevan Autonomous Republic, aswell as its development tendencies. Progressive forms of territorial organization of economy, as well economic stripes (axes) and centers are sescribed and their region – formative role is pointed out.